**“Terrorçuluğa qarşı mübarizə haqqında” və “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci və 20-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** “Terrorçuluğa qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, 8, maddə 475; 2001, 11, maddə 676; 2002, 5, maddə 258; 2004, 3, maddə 133; 2005, 10, maddə 871; 2009, 2, maddə 46; 2010, 3, maddə 178; 2014, 4, maddə 329; 2016, 6, maddə 1003; 2017, 7, maddələr 1282, 1292; 2018, 3, maddə 371) 1-ci maddəsinin on birinci abzasında “219-1, 226, 227, 277, 278, 279, 280, 282 və 283-1-ci maddələrində nəzərdə tutulmuş əməllərin şəxs və ya qrup (dəstə, təşkilat) tərəfindən hazırlanmasının, təşkil olunmasının və ya törədilməsinin maliyyələşdirilməsi üçün, yaxud göstərilən cinayətlərin törədilməsi məqsədilə şəxsin və ya həmin məqsədlə yaradılan qrupun (dəstənin, təşkilatın) təmin edilməsi” sözləri “219-1, 219-2, 226, 227, 227-1, 270-1, 277, 278, 279, 280, 282 və 283-1-ci maddələrində nəzərdə tutulmuş əməllərin şəxs və ya qrup (dəstə, təşkilat) tərəfindən hazırlanmasının, təşkil olunmasının və ya törədilməsinin, yaxud terrorçunun və ya terrorçu qrupun (dəstənin, təşkilatın) maliyyələşdirilməsi” sözləri ilə əvəz edilsin.

**Maddə 2.** “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, 2, maddə 58; 2010, 3, maddə 178, 4, maddə 276; 2011, 12, maddə 1104; 2013, 11, maddə 1274; 2014, 2, maddə 81, 10, maddə 1159, 11, maddə 1361; 2015, 11, maddə 1294; 2016, 3, maddə 413; 2017, 5, maddələr 696, 711, 7, maddə 1295, 11, maddə 1959; 2018, 7 (I kitab), maddə 1407, 10, maddə 1973, 11, maddə 2233; 2019, 1, maddə 24) 6.5-ci maddəsində “4.0.9-cu” sözləri “4.1.9-cu” sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 30 may 2019-cu il
1599-VQD